Azərbaycan Respublikası
Mərkəzi Bankının İdarə Heyətinin
“07” sentyabr 2022-ci il tarixli
qərarı ilə təsdiq edilmişdir
Protokol № 38

AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ LİSENZİYALAŞDIRMA ŞÖBƏSİ HAQQINDA

Ə S A S N A M Ə

BAKI - 2022

1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikası Mərkəzi Bankının Lisenziyalaşdırma şöbəsi (bundan sonra – Şöbə) Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra - Mərkəzi Bank) mərkəzi aparatının struktur bölməsidir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Banklar haqqında", “Sığorta fəaliyyəti haqqında”, “Qiymətli kağızlar bazarı haqqında”, “İnvestisiya fondları haqqında” Azərbaycan Respublikası qanunlarını, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarını, Mərkəzi Bankın normativ xarakterli aktlarını, İdarə Heyətinin və daxili komitələrin qərarlarını, Mərkəzi Bank üzrə əmrləri, sərəncamları və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə bu Əsasnamə ilə müəyyən olunmuş funksiyaların yerinə yetirilməsi prosesində Mərkəzi Bankın digər struktur bölmələri və qurumları ilə fəaliyyətini əlaqələndirir.

2. ŞÖBƏNİN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDİ

Şöbənin fəaliyyətinin əsas məqsədi Mərkəzi Bankda maliyyə bazarları sahəsində fəaliyyətin həyata keçirilməsi ilə bağlı lisenziya və icazə sisteminin təmin edilməsidir.

3. ŞÖBƏNİN ƏSAS FUNKSİYALARI

Şöbənin əsas funksiyaları aşağıdakılardır:

3.1. qanunvericiliyə uyğun olaraq maliyyə bazarlarının iştirakçılarına lisenziya və icazələrin verilməsi üçün müraciətlərə baxılması və əlaqədar tədbirlərin görülməsi, lisenziya və icazələrin mərkəzi reyestrinin aparılması;

3.2. maliyyə bazarlarında nəzarət edilən subyektlərdə (nəzarət subyektləri) rəhbər vəzifə tutan şəxslərin təyinatı məsələsinə baxılması;

3.3. maliyyə bazarlarında attestasiyaların təşkil edilməsi;

3.4. nəzarət subyektlərinə qanunla nəzərdə tutulmuş digər hüquq müəyyənedici sənədlərin (razılıq, icazə və s.) verilməsinə dair müraciətlərə baxılması.

4. ŞÖBƏNİN İDARƏ OLUNMASI

4.1. Şöbənin fəaliyyətinə şöbə rəisi rəhbərlik edir. Şöbə rəisi işdə olmadıqda, onun səlahiyyətlərini rəhbərliyin müvafiq əmri ilə həvalə edilmiş şöbənin əməkdaşlarından biri həyata keçirir.

4.2. Şöbənin nomenklatur vəzifəli şəxsləri Mərkəzi Bankın İdarə Heyəti tərəfindən vəzifəyə təyin olunur və vəzifədən azad olunur.

5. ŞÖBƏNİN İŞİNİN TƏŞKİLİ

Şöbə öz funksiyalarının həyata keçirilməsi ilə bağlı aşağıdakı işləri yerinə yetirir:

5.1. nəzarət subyektlərinin fəaliyyətinin həyata keçirilməsi ilə bağlı lisenziya və icazələrin (könüllü sığorta növünün aparılmasına icazə istisna olmaqla) alınması üçün təqdim olunan sənədlərin uçotunu aparır, ekspertizasını həyata keçirir və aidiyyəti struktur bölmələrdən rəy alır, lisenziya və icazələrin verilməsi ilə əlaqədar müvafiq tədbirlər görür;

5.2. əlaqədar struktur bölmələrin təqdimatları əsasında Mərkəzi Bank tərəfindən verilmiş lisenziya və icazələrin (könüllü sığorta növünün aparılmasına icazə istisna olmaqla) qüvvəsinin dayandırılması, məhdudlaşdırılması və ləğv edilməsi ilə bağlı zəruri tədbirlər görür;

5.3. lisenziya və icazələrlə əlaqədar nəzarət subyektlərində texniki-təchizat və təhlükəsizlik tədbirlərini yoxlayır;

5.4. nəzarət subyektlərinə verilmiş lisenziyaların və icazələrin (könüllü sığorta növünün aparılmasına icazə istisna olmaqla), o cümlədən onların filial və nümayəndəliklərinin, xarici sığortaçı, xarici təkrarsığortaçı və xarici sığorta brokerlərinin, aktuarilərin, sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslərin və müstəqil ekspertlərin ictimaiyyət üçün açıq olan reyestrini aparır;

5.5. veksellərin uçot təşkilatlarının qeydiyyatını həyata keçirir;

5.6. kredit təşkilatlarının inzibatçılarının və digər nəzarət subyektlərində rəhbər vəzifə tutan şəxslərin təyinatı ilə bağlı müraciətlərə baxır, qanunvericiliyə uyğun olaraq nəzarət subyektlərinin rəhbər şəxslərinin və əməkdaşlarının, sığorta bazarının peşəkar iştirakçılarının ixtisas uyğunluğu və vətəndaş qüsursuzluğuna dair sənədləri yoxlayır və attestasiyasını təşkil edir;

5.7. banklarda, sığortaçıda, təkrarsığortaçıda, investisiya şirkətində, fond birjasında, klirinq təşkilatında, investisiya fondunun depozitarında, səhmdar investisiya fondunda və

idarəçidə mühüm iştirak payının əldə edilməsi ilə bağlı müraciətlərə baxır və aidiyyəti struktur bölmələrdən rəy alır;

5.8. bankların, sığortaçıların, təkrarsığortaçıların digər hüquqi şəxslərin kapitalında iştirakı ilə bağlı müraciətlərə baxır və aidiyyəti struktur bölmələrdən rəy alır;

5.9. bankın nizamnaməsində edilən dəyişikliyə razılıq verilməsi üçün təqdim edilən layihələrin ekspertizasını həyata keçirir;

5.10. Şöbənin əməliyyat planları və büdcə layihələrinin tərtib edilməsində iştirak edir və fəaliyyət istiqamətləri üzrə icrasını təmin edir;

5.11. Şöbəyə daxil olan müraciətlərə baxır, məktub və sorğulara cavab hazırlayır;

5.12. rəhbərliyin tapşırığı ilə Şöbənin fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

6. YEKUN MÜDDƏA

Bu Əsasnamə təsdiq edildiyi gündən qüvvəyə minir.

Mərkəzi Bankın sədri **Taleh Kazımov**